“Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir”.

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   13 iyun 2015-ci il   № 45 (1961)   Qiyməti 25 qəpik


# Birinci Avropa Oyunlarının rəsmi açılış mərasimi iştirakçılarının şərəfinə rəsmi qəbul təşkil olunub

***İyunun 12-də Heydər Əliyev Mərkəzində "Bakı-2015" Birinci Avropa Oyunlarının rəsmi açılış mərasimi iştirakçılarının şərəfinə Azərbaycan Prezidenti İlham Əliyevin adından rəsmi qəbul təşkil olunub.***




Rəsmi qəbulda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Prezidenti Tomislav Nikoliç, Monteneqro Prezidenti Filip Vuyanoviç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Mladen İvaniç, Belarus Prezidenti Aleksandr Lukaşenko, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Lüksemburq Hersoqluğunun Böyük Hersoqu Anri, Monako Knyazlığının şahzadəsi II Albert, San-Marinonun dövlət başçıları - Kapitan regentləri Andrea Bellutsi və Roberto Venturini, Bolqarıstanın Baş naziri Boyko Borisov, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qırğızıstanın Baş nazirinin birinci müavini Tayrıbek Sarpaşov, Çexiya Parlamentinin Deputatlar Palatasının sədri Yan Hamaçek, Slovakiya Parlamentinin sədri Peter Pelleqrini, Avstriya parlamentinin ikinci Prezidenti Karlhaynts Kopf, Latviya Parlamenti sədrinin müavini Andrey Klementiyev, Meksika Senatının xarici əlaqələr komitəsinin sədri Qabriela Kuevas Barron, Ukrayna Dövlət Fiskal Xidmətinin sədri, Ukrayna Ali Radasının Ukrayna-Azərbaycan parlamentlərarası əlaqələr üzrə qrupun başçısı Roman Nasirov, Qətərin Olimpiya Komitəsinin sədri Şeyx Cəuan bin Həməd Əl Tani, Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi Abdullah bin Mosaad, Küveytin informasiya və gənclər naziri Şeyx Salman Əl-Hamoud Əl Sabah, Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, Oman Sultanlığının idman işləri naziri şeyx Səad bin Məhəmməd bin Səid Əl-Mərduf Əl-Sədi, İran İslam Respublikasının idman və gənclər naziri Mahmud Qudərzi, Türkiyənin energetika naziri Taner Yıldız, Böyük Britaniyanın xarici işlər nazirinin müavini və parlamentin üzvü Tobias Martin Elvud, Vatikanın mədəniyyət nazirinin müavini Luis Marie Vilyam Sançez De Toca, İSESCO-nun baş direktoru Əbdüləziz Osman Əl-Tüveycri, Latviyanın sabiq Prezidenti Valdes Zatlers və digər yüksək səviyyəli qonaqlar iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev və "Bakı-2015" Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva ilk Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün ölkəmizə gələn dövlət və hökumət başçıları, tanınmış ictimai-siyasi və idman xadimləri ilə görüşdülər.

Dünyanın idman tarixində silinməz iz qoyacaq ilk Avropa Oyunlarının rəsmi açılış mərasimində yüksək səviyyəli qonaqların iştirakı bu Oyunların əhəmiyyətini bir daha təsdiq edir. Avropa Oyunlarına bütün dünyada böyük maraq var. Qitənin idman tarixində mühüm hadisə olan bu Oyunların Azərbaycanda keçirilməsinə qərar verilməsi təbii ki, ölkəmizin beynəlxalq nüfuzundan və dünyada formalaşdırdığı müsbət imicdən irəli gəlir. Bu amil həm də Azərbaycanda idmana göstərilən qayğı, idman sahəsində əldə olunan uğurlarla da sıx bağlıdır. Avropa idman ailəsinin bu qərarı Azərbaycandakı ictimai-siyasi sabitliyə və son illərdə əldə olunan yüksək iqtisadi nailiyyətlərə inamın təsdiqidir. Prezident İlham Əliyevin hərtərəfli fəaliyyəti sayəsində Azərbaycan belə nüfuzlu idman tədbirini keçirmək iqtidarında olduğunu bir daha bütün dünyaya nümayiş etdirir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Birinci Avropa Oyunlarının Təşkilat Komitəsi bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün səyləri birləşdirdi. Qısa müddətdə yeni müasir idman obyektlərinin inşası, mövcud olanların isə əsaslı şəkildə yenidən qurulması beynəlxalq idman ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirildi. Ölkəmizdə bu Oyunları yüksək səviyyədə keçirmək üçün yaradılan şərait, qısa müddətə görülən işlər və reallaşdırılan layihələr bir daha sübut edir ki, beynəlxalq idman ailəsinin üzvü olan Azərbaycanda başlanılan bütün işlər vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilir. Bu isə Avropa Oyunlarının standartını yaradan Azərbaycanı yenidən dünyanın diqqət mərkəzinə çevirir. Azərbaycan da daxil olmaqla Avropanın 50 ölkəsindən 6000-dən artıq idmançının qatıldığı Birinci Avropa Oyunları dünya idman tarixində mühüm hadisə kimi qalacaq.

Rəsmi qəbulda Birinci Avropa Oyunlarına dair qısa videoçarx nümayiş etdirildi.

Dövlətimizin başçısı İlham Əliyev rəsmi qəbulda çıxış etdi.

- Hörmətli xanımlar və cənablar, əziz qonaqlar.

Mən sizin hamınızı səmimi qəlbdən salamlayıram. Xaricdən gələn bütün qonaqlara "Azərbaycana xoş gəlmisiniz" deyirəm.

Bir neçə saatdan sonra Bakıda birinci Avropa Oyunları başlayır. Bu hadisə münasibətilə ilk növbədə bütün Azərbaycan xalqını, bütün Avropa xalqlarını təbrik edirəm. Əminəm ki, bu idman yarışı dostluq, mehribanlıq bayramına çevriləcəkdir.

Bu, ölkəmiz üçün tarixi hadisədir. Çünki bu günə qədər ölkəmizdə bu miqyasda idman yarışları keçirilməmişdir. Eyni zamanda, bu, Avropa üçün də tarixi hadisədir. Çünki başqa qitələrdən fərqli olaraq, Avropada heç vaxt qitə oyunları keçirilməmişdir. Baxmayaraq ki, olimpizm hərəkatının və olimpizm ideyalarının vətəni Avropadır. Bu tarixi qərar 2012-ci ilin dekabrında qəbul edilib. Bu qərarın qəbul edilməsinə görə Avropa Olimpiya Komitəsinə və şəxsən onun prezidenti cənab Patrik Hikkiyə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bu qərar gələcəkdə Avropa idmanının inkişafında müsbət rolunu oynayacaq.

Qərar qəbul olunandan sonra biz Azərbaycanda dərhal Oyunların Təşkilat Komitəsini yaratdıq. Ondan sonra yerli və beynəlxalq nümayəndələrdən ibarət Əməliyyat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsi və Əməliyyat Komitəsi çox fəal işləyərək qısa müddət ərzində belə mötəbər idman yarışını hazırlayıb.

Əlbəttə, bu Oyunların hazırlanmasında könüllülər çox böyük rol oynamışlar. İyirmi minə yaxın yerli və xarici könüllü bu Oyunların keçirilməsi üçün bu illər ərzində çox fəal işləyiblər. Mən onların rolunu xüsusilə qeyd etmək istəyirəm. Onların mütləq əksəriyyəti gənclərdir. Onlar bizim gələcəyimizdir. Əlbəttə, bu əvəzolunmaz təcrübə gələcək həyatda onlar üçün müsbət rol oynayacaq.

Azərbaycanda idmanın inkişafına çox böyük diqqət göstərilir. İdmanın, Olimpiya hərəkatının inkişafı Azərbaycanda dövlət siyasətidir. İdmançılarımız da bizi böyük uğurlarla, qələbələrlə sevindirirlər. Deyə bilərəm ki, son Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları komanda hesabında 30-cu, Avropa ölkələri arasında isə 15-ci yerə layiq görülmüşlər.

Gənc idmançılarımız da bizi sevindirir. 2014-cü ildə keçirilmiş Yeniyetmələrin Yay Olimpiya Oyunlarında Azərbaycan komandası 200-dən çox iştirakçı arasında 10-cu yerə layiq görülmüşdür. Bu, onu göstərir ki, gözəl gənc nəsil yetişir və idmanın ənənələri möhkəmlənir. Əlbəttə ki, bu, ölkəmizin inkişafına müsbət təsir göstərir.

İdman ictimaiyyəti həyatımızın ayrılmaz hissəsidir. Təsadüfi deyil ki, birinci Avropa Oyunları Bakıda keçirilir. Hesab edirəm ki, burada idmançılarımızın uğurları ilə yanaşı, digər amillər də öz rolunu oynamışdır. Azərbaycanda çox inkişaf etmiş idman infrastrukturu yaradılmışdır. Bizim bölgələrimizdə 50-yə yaxın olimpiya idman mərkəzi yaradılmışdır. Bakıda isə bütün idman qurğuları, idman obyektləri ən yüksək standartlara cavab verir. Oyunların iştirakçıları və qonaqlar özləri bunu təsdiq edəcəklər.

Şəhər infrastrukturu çox inkişaf edib. Xüsusilə Oyunlara hazırlıq zamanı bu sahəyə daha böyük diqqət göstərilmişdir. Nəqliyyat sistemimizin, xidmət sektorunun təkmilləşdirilməsi, yeni otellərin açılışı əlbəttə ki, gələcəkdə Azərbaycana gələn turistlərin sayını böyük dərəcədə artıracaq. Eyni zamanda, Avropadan gələn minlərlə qonaq Azərbaycanı yaxından tanıyacaq. Əminəm ki, onların bir çoxu gələcəkdə Azərbaycana qayıtmaq istəyəcəklər.

Azərbaycanda siyasi sabitlik mövcuddur. Ölkənin uğurlu dayanıqlı inkişafı təmin edilir. İqtisadi inkişafımız da xalqımızı sevindirir. Bu il iqtisadiyyat 5 faizdən çox artmışdır. Son 10 il ərzində isə dünya miqyasında Azərbaycan iqtisadiyyatı ən sürətli templərlə inkişaf etmişdir və 3 dəfədən çox artmışdır. Bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, biz bu Oyunları yüksək səviyyədə keçirək. Biz buna çalışmışıq və əminəm ki, qonaqlar Oyunları böyük maraqla izləyəcəklər.

Bir önəmli amili də qeyd etmək istəyirəm. Bu da Oyunlara ictimaiyyət tərəfindən verilən dəstəkdir. Azərbaycan xalqı Birinci Avropa Oyunlarının Bakıda keçirilməsini ürəkdən alqışlayır. Bu, son iki il ərzində bir növ ümumxalq məsələsinə çevrilmişdir. Oyunların məşəlini bütün bölgələrdə, o cümlədən Bakıda qarşılamaq üçün iki milyona yaxın insan küçələrə, meydanlara çıxmışdır ki, məşəli salamlasın və Oyunlara öz güclü ictimai dəstəyini versin.

Oyunlar bu gün başlayır. Bu günlər ərzində - iyunun 28-dək idmançılar öz güclərini göstərəcəklər. Oyunlardan sonra əlbəttə ki, həyat davam edəcək. Azərbaycan digər böyük mötəbər idman yarışlarına ev sahibliyi edəcəkdir. 2016-cı ildə Bakıda Ümumdünya Şahmat Olimpiadası keçiriləcəkdir. Eyni zamanda, 2016-cı ildə "Formula-1" yarışı Bakıda keçiriləcəkdir. 2017-ci ildə İslam Həmrəylik Oyunları Azərbaycanda, Bakıda keçiriləcəkdir. 2020-ci ildə isə futbol üzrə Avropa çempionatının qrup mərhələsi və dörddəbir final yarışları Bakıda keçiriləcəkdir. Yəni, Azərbaycan artıq idmanın inkişafı istiqamətində öz rolunu dünyaya göstərib. Əminəm ki, Bakıya gələn və gələcək yarışlarda iştirak edəcək idmançılar, qonaqlar ölkəmizdən ən xoş təəssüratlarla ayrılacaqlar.

Oyunlar başlayır. Bütün komandalar hazırdır. Azərbaycan xalqı Oyunların başlamasını səbirsizliklə gözləyir. Bizim üçün bu tarixi bir gündə bütün idmançılara, bütün qonaqlara bir daha "Xoş gəlmisiniz" deyirəm, idmançılara uğurlar arzulayıram. Qoy güclü qalib gəlsin. Sağ olun.

## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə

Yoldaş zabitlər, gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi 15 iyun - Milli Qurtuluş Günü munasibəti ilə səmimiqəlbdən təbrik edirəm.

22 ildir ki, xalqımız 15 iyun gününü ümumxalq bayramı kimi qeyd edir. Azərbaycanın "olum, ya ölüm" seçimi qarşısında qaldığı, azadlığımızın və müstəqilliyimizin böyük təhlükə ilə üzləşdiyi 1993-cü ilin dəhşətli iyun günlərində xalqın təkidli xahişi və tələbi ilə Ulu Öndər Heydər Əliyevin ölkəmizin rəhbərliyinə qayıdışı müstəqilliyini yenicə bərpa etmiş respublikamızı məhv olmaq fəlakətindən xilas etdi və xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi əbədi həkk olundu. "Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyən Ümummilli Liderimiz Vətən və xalq naminə çox ağır və məsuliyyətli missiyanı öhdəsinə götürərək bu yolda hər bir azərbaycanlı üçün örnək ola biləcək fədakarlıq nümunələri göstərdi. Unudulmaz dahi rəhbərimiz xalqı öz inamını itirməməyə, məsləkindən dönməməyə, Azərbaycanın müstəqilliyi, milli azadlığı, müstəqil dövlət kimi əbədi yaşaması yolundan çəkinməməyə, ölkəmizi düçar olduğu böhrandan çıxarmağa çağırdı.

Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini təmin etmək kimi müqəddəs vəzifəni yerinə yetirən Milli Ordu quruculuğunda yeni bir mərhələnin əsası qoyuldu. Ulu Öndərimizin xalqa tarixi müraciəti milli şüurun oyanışında, xalqın bir bayraq altında, bir amal uğrunda birləşib ümumi düşmənə qarşı səfərbər olmasında, ordu ilə xalqın monolit birliyinin yaranmasında, Azərbaycan əsgərinin döyüş və vətənpərvərlik ruhunun yüksəlməsində çox mühüm rol oynadı.

Qarabağ müharibəsinin veteranları qanlı döyüşlər getdiyi vaxtlarda əbədiyaşar Ali Baş Komandanımızın tez-tez cəbhə bölgələrinə etdiyi səfərləri, üzərində "Heydər Əliyev uğrunda!" sözləri yazılmış döyüş texnikalarının düşmən üzərinə qətiyyətli hücumlarını yaxşı xatırlayırlar. Məhz müasir Silahlı Qüvvələrimiz Ulu Öndərimizin sayəsində yenidən quruldu, formalaşdı, möhkəmləndi və vahid mərkəzdən idarə olunan mütəşəkkil qüvvəyə çevrildi.

Xalqımız və dövlətimiz, eləcə də Silahlı Qüvvələrimizin şəxsi heyəti Ümummilli Liderimizin ölkənin siyasi, iqtisadi, mədəni həyatında olduğu kimi ordu quruculuğu sahəsində də möhtəşəm xidmətlərini heç vaxt unutmur.

Azərbaycan Silahlı Qüvvələri Ulu Öndərimizin layıqli davamçısı möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında daha da qüdrətlənmiş və qarşısına qoyulmuş hər bir vəzifəni layiqincə yerinə yetirməyə qadirdir. Ordumuz ölkə rəhbərliyinin daimi diqqət və qayğısı ilə əhatə olunmuşdur.

İnanıram ki, xalqına, dövlətinə, Prezidentinə, öz Ali Baş Komandanına arxalanan Silahlı Qüvvələrimizin şəxsi heyəti bundan sonra da qazandığı uğur və nailiyyətlərlə xalqımızı sevindirəcək, tezliklə işğal altında olan əzəli və əbədi torpaqlarımızın xilas edilməsinə nail olacaqdır.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram.

**Azərbaycan Respublikasının Müdafiə naziri**
**general-polkovnik Zakir HƏSƏNOV**

## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə

Yoldaş zabitlər, gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi xalqımızın və dövlətimizin həyatında əlamətdar tarixi günlərdən biri olan 15 iyun - Milli Qurtuluş Günü munasibəti ilə təbrik edirəm.

Siyasi fəaliyyəti və zəngin həyat yolu ilə yaddaşlarda əbədiyyət qazanmış Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın iradəsi ilə yenidən respublika rəhbərliyinə qayıtdıqdan sonra müstəqilliyimiz üçün təhlükə yaratmış separatçılıq hərəkatına son qoymuş, Vətənimizi vətəndaş müharibəsi, dövlətimizi parçalanmaq təhlükəsindən xilas etmiş, ölkədə ictimai-siyasi sabitliyin bərqərar olunmasına, cəmiyyətin vahid məqsəd ətrafında daha çox səfərbər edilməsinə və vətənimizin müdafiə qüdrətinin möhkəmləndirilməsinə güclü təkan vermişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qeyd etdiyi kimi, müasir, mütəşəkkil ordunu yaratmaq Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Heydər Əliyev müasir müstəqil Azərbaycan Respublikasının qurucusu olmaqla yanaşı, həm də müasir Azərbaycan ordusunun yaradıcısı, baş memarıdır. Bu əlamətdar gündə biz Ulu Öndərimizin ordu quruculuğu sahəsində möhtəşəm xidmətlərini bir daha dönə-dönə xatırlayır və əbədiyaşar Ali Baş Komandanımızı hörmət və ehtiramla yad edirik.

Xalqımızın Ümummilli Liderinin siyasəti möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ali Baş Komandanımızın Prezident kimi fəaliyyətində ordu quruculuğu məsələləri prioritetdir.

Azərbaycan Silahlı Qüvvələrinin maddi-texniki bazası durmadan möhkəmlənir, yeni silah və sursatlar, döyüş təyyarə və helikopterləri, zenit-raket kompleksləri, gəmilər alınır, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik ruhu yüksək səviyyədədir.

Əmin olduğumu bildirirəm ki, siz bundan sonra da, Heydər Əliyev ideyalarına sadiq qalaraq, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Müdafiə naziri general-polkovnik cənab Zakir Həsənovun qarşıya qoyduqları vəzifələri şərəf və ləyaqətlə yerinə yetirəcək, göstərilən etimadı nümunəvi xidmətlərinizlə doğruldacaq və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi naminə Vətənin çağırışına hər an hazır olacaqsınız.

**Müdafiə nazirinin birinci müavini -**
**Silahlı Qüvvələrin Baş Qərargah rəisi**
**general-polkovnik Nəcməddin SADIKOV**

AZƏRBAYCAN ORDUSU

### 15 İyun - Milli Qurtuluş Günüdür

# Böyük qayıdışın təntənəsi

***Dünyada çox az düha sahibinə tərk etdiyi mübarizə meydanına bir daha geri dönmək, tarixi qayıdış etmək hünəri müyəssər olub. Çünki tarixi qayıdış bəşər övladına nəsib olan dühalıq siması, müstəsna müdriklik keyfiyyətidir. Və şəxsiyyətin iradə tükənməzliyi insan gücünün dönməzlik ifadəsidir. Tarixi qayıdış xalqa, Vətənə bağlılığın, saflıq və müqəddəsliyin doğurduğu ecazkar qüvvə, əlçatmaz yüksəklikdir. Tarixi qayıdış millətin gücünün və əzəmətinin dirçəlişi deməkdir. Bəli, dahi şəxsiyyət, dünyaşöhrətli ictimai-siyasi xadim ulu öndər Heydər Əliyevin tarixi qayıdışı ilə ölkəmiz əzəmətli dəyişikliklərə nail oldu. Bu, bir həqiqətdir. Məhz bu dahi insanın səyi nəticəsində Azərbaycan dönməz müstəqilliyə, inkişafa, tərəqqiyə qədəm qoydu. O, bütün ömrünü xalqımızın firavan həyatına, xoşbəxt gələcəyinə sərf etdi, milli dövlətçiliyimizin banisi kimi Azərbaycan xalqının ümummilli lideri oldu.***

**Heydər ƏLİYEV:**

*"Mən əminəm ki, bizim ordumuz bu gün Azərbaycan müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır".*



Ümummilli liderimizin Azərbaycan Respublikası Ali Sovetinin 15 iyul 1993-cü il tarixli iclasındakı çıxışında səsləndirdiyi tarixi bir fikir yaxşı yadımdadır: "Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olum, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə sərf edəcəyəm".

Ulu öndərimiz Heydər Əliyev Azərbaycana rəhbərliyinin Sovet dönəmində ölkənin bütün sahələrində tükənməz dövlət idarəçiliyi istedadı nümayiş etdirərək elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına, xüsusilə hərbi quruculuq məsələlərinə böyük qayğı göstərmişdi. Belə ki, Sovet imperiyasının ciddi qadağalarına baxmayaraq, yüksək iradəsi, qətiyyəti, uzaqgörənliyi sayəsində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail olmuşdu. Tarix göstərdi ki, Azərbaycanın tezliklə imperiya əsarətindən sıyrılıb öz müstəqilliyinə qovuşacağına böyük inamdan və həmin müstəqilliyi qorumaq üçün güclü milli orduya ehtiyacdan yaranmış C.Naxçıvanski adına Hərbi Lisey Silahlı Qüvvələrimizin formalaşmasında baza rolunu oynadı.

1993-cü ilin iyununda ölkənin parçalanmasına gətirib çıxaran xoşagəlməz meyillərin mövcud olduğu, anarxiyanın, xaosun, özbaşınalığın hökm sürdüyü, müstəqilliyimizin təhlükə altına düşdüyü, Azərbaycanın dövlət müqəddəratının həll olunduğu və erməni hərbi birləşmələrinin təcavüzkar siyasəti nəticəsində torpaqlarımızın işğala məruz qaldığı bir vaxtda xalqın təkidilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev iyunun 15-də Ali Sovetin sədri seçildi. Həmin gün xalqımızın tarixinə Qurtuluş Günü kimi daxil oldu. Və həmin gün böyük qayıdışın təntənəsi idi. Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı. Elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dağınıq, pərakəndə vəziyyətdə olan ordu vahid komandanlıq tərəfindən idarə olundu. Qısa müddət ərzində nizami hərbi hissələr formalaşdı. Ölkə rəhbəri Ali Baş Komandan Heydər Əliyevin cəbhə bölgələrində əsgər və zabitlərlə görüşməsi, ordu quruculuğunun vəziyyəti ilə yaxından maraqlanması ordunun döyüş hazırlığının yüksəldilməsinə müsbət təsir göstərdi. Döyüşçülərimizin hünər və rəşadəti sayəsində bəzi bölgələrdə 30-40 kilometr geri oturdulmasından sarsılan təcavüzkar Ermənistan 1994-cü il mayın 12-də atəşkəsi nəzərdə tutan Bişkek protokoluna imza atmaq məcburiyyətində qaldı. Bundan sonra həm iqtisadiyyatımızın inkişafı, həm də ordu quruculuğunun kompleks şəkildə davam etdirilməsi üçün real zəmin yarandı. Ulu öndərin bir-birinin ardınca imzaladığı sənədlər ordu quruculuğuna güclü təkan verdi. Hərbi xidməti daha da təkmilləşdirmək məqsədi ilə güclü qanunvericilik bazası yaradıldı. Bir sıra hüquqi normativ aktlar qəbul olundu. Silahlı Qüvvələrə peşəkar hərbçilər cəlb edildi. Orduda nizam-intizam gücləndirildi. Silahlı Qüvvələrimiz dünya standartlarına uyğun olaraq bir mərkəzdən - vahid komandanlıqdan idarə olunan mütəşəkkil hərbi struktura çevrildi. 1994-cü il mayın 4-də Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulması ilə Azərbaycan Ordusunun NATO-ya inteqrasiyasının əsası qoyuldu. Heydər Əliyev ordumuzun modernləşməsini prioritet məsələ kimi daim diqqət mərkəzində saxladı. Silahlı Qüvvələrimizin təcrübəli hərbi kadrlara olan ehtiyacını aradan qaldırmaq məqsədilə hərbi məktəblərin fəaliyyətinin yenidən qurulmasını istiqamətləndirən kompleks tədbirlər planı hazırlanıb həyata keçirildi. Məhz dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycan həqiqətlərinə - onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi. 1996-cı ildə ATƏT-in Lissabon sammitində bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın milli mənafelərinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyəti nəticəsində günü-gündən qüdrətlənən Azərbaycan Ordusu işğal olunmuş torpaqlarımızı düşməndən azad etməyə qadirdir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

***Ulu öndər ən çətin zamanda dövlətçiliyimizi məhv olmaq təhlükəsindən qorumaqla, ölkəmizdə ictimai-siyasi sabitliyi və vətəndaş həmrəyliyini təmin etməklə bu günümüzə müstəqil Azərbaycan dövlətini bəxş edib. Və bununla da yeni tariximizdə əbədi yaşamaq hüququ qazandı.***

1993-cü ilin iyununda ölkədə yaranmış vətəndaş müharibəsi təhlükəsini düzgün qiymətləndirən ziyalılar, ağsaqqallar belə qərara gəlmişdilər ki, ölkə rəhbərliyinə təcrübəli dövlət xadimi Heydər Əliyev gəlməlidir. Şübhəsiz, həmin dövrdə ölkədə yaranmış hərcmərcliyi yalnız böyük dövlətçilik təcrübəsinə malik olan dahi rəhbər aradan qaldıra bilərdi. Azərbaycan xalqının yekdil rəyi ilə ümummilli liderin ölkəmizin siyasi rəhbərliyinə qayıdışı zərurət idi. Məhz bu tarixi qayıdışla ölkəmizin dövlətçilik tarixində əsaslı dönüş baş verdi. Azərbaycanın milli qurtuluşu ilə müstəqilliyimizin qorunub möhkəmlənməsi istiqamətində mühüm addımlar atıldı. Heç kəsə sirr deyil ki, ulu öndərin qayıdışı nəticəsində müstəqil Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas oldu. Heydər Əliyev 1993-cü ilin iyununda özünün böyük qayıdışı ilə sübuta yetirdi ki, tarixin həqiqi yaradıcısı məhz nəhəng şəxsiyyətlərdir. Çox haqlı olaraq xalqımız dahi rəhbərin qayıdışı gününü əlamətdar hadisə kimi hər il böyük təntənə ilə qeyd edir.

Əlbəttə, müdrik rəhbərin hakimiyyətə qayıdışı ilə Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində, həmçinin peşəkar ordunun formalaşdırılması məqsədilə görülmüş işlər, qazanılan uğurlar təkzibedilməzdir. Sərhəd bölgələrimiz erməni hərbi birləşmələrinin təcavüzünə məruz qaldığı bir zamanda ölkənin müdafiə potensialının gücləndirilməsi olduqca zəruri idi. Bu yerdə böyük öndərin 1993-cü ilin noyabrın 2-də xalqa televiziya və radio ilə müraciətini xatırlatmamaq olmur. Həmin çağırışda Vətənimizin müstəqilliyinin və ərazi bütövlüyünün ciddi təhlükədə olduğu vurğulanırdı. Xüsusən gənclərə ünvanlanmış bu müraciətdən sonra minlərlə gənc silaha sarılıb torpaqlarımızın müdafiəsinə yollandı. Hərbi əməliyyatların vahid komandanlıqdan idarə edilməsinə nail olunduqdan sonra cəbhə xəttində əsaslı dönüş baş verdi. Emənistan ilk dəfə olaraq ordumuzun real gücünü hiss edib geri çəkilməyə və nəticədə atəşkəs razılığını imzalamağa məcbur oldu.

Məqsədyönlü islahatların nəticəsi olaraq ölkədə uzunmüddətli ictimai-siyasi sabitlik yarandıqdan sonra müdrik dövlət xadimi 1994-cü il sentyabrın 20-də mühüm bir vəzifənin də öhdəsindən bacarıqla gəldi: dünyanın məşhur neft şirkətlərini müharibə vəziyyətində olan bir ölkəyə cəlb edib onları Azərbaycan neftinə investisiya qoymağa inandırdı və bununla da "Əsrin müqaviləsi" imzalandı. Xəzər hövzəsində beynəlxalq əməkdaşlığın bünövrəsini qoymuş bu müqavilənin imzalanması ilə respublikamızın gələcək sürətli inkişafına əsas yaradıldı. Ümummilli lider dəfələrlə bəyan etmişdi ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Ulu öndərin hakimiyyəti dönəmində xalqımızın demokratik hüquqi dövlətdə yaşamaq idealı da gerçəkliyə çevrildi. Dünyəvi və hüquqi dövlət quruculuğu istiqamətində atılan mühüm addımlar sonrakı dövrdə güclü Azərbaycan dövlətinin təşəkkül tapmasına gətirib çıxardı.

Müdrik rəhbər Heydər Əliyev Azərbaycanı bir dövlət kimi məhv olmaqdan xilas etdiyinə görə 15 iyun gününü xalqımız milli bayram, Milli Qurtuluş Günü kimi təntənə ilə qeyd edir. Qoy gələcək nəsillərimiz, böyüməkdə olan gənclik dərindən başa düşsün ki, müasir dövlətçiliyimizin qurulmasında, inkişaf etdirilməsində və möhkəmlənməsində ulu öndərimizin misilsiz xidmətləri olmuşdur.

Müstəqil dövlətimizin qısa zamanda qazandığı uğurları ümumiləşdirməklə deyə bilərik ki, artıq keçid dövrünü başa vuran müasir Azərbaycan bu gün sürətli inkişaf yolundadır. Bu inkişafın əsasında isə, dəfələrlə qeyd etdiyimiz kimi, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt dayanır. Ulu öndərin siyasi məktəbinin layiqli yetirməsi olan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hazırda həyata keçirdiyi mühüm siyasi-iqtisadi və sosial, eləcə də hərbi islahatlar ölkəmizin ildən-ilə tərəqqi etməsini və regionda öz liderliyini qoruyub saxlamasını təmin edib. Şübhəsiz, hər bir vətəndaşımız kimi, Azərbaycan Ordusunun şəxsi heyəti də ulu öndərin ideyalarına sədaqətini bundan sonra da ifadə etmək üçün əlindən gələni əsirgəməyəcəkdir.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

---

***Artıq Azərbaycanda dünya səviyyəli böyük bir idman tədbirinə - ilk Avropa Oyunlarına start verildi. Belə bir tədbirin ölkəmizdə baş tutması, əslində, Azərbaycanın sosial-iqtisadi inkişafının, beynəlxalq aləmdə artan nüfuzunun nəticəsidir. 2012-ci ildə Avropa Olimpiya Komitəsinin Baş Assambleyasında 2015-ci ildə Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar ölkəmizin böyük uğuruna çevrildi.***

Əslində, bu uğurlarımızın başlanğıcı 1993-cü il iyunun 15-də xalqımızın təkidli tələbilə yenidən hakimiyyətə qayıtmış dünya miqyaslı siyasi xadim, ümummilli lider Heydər Əliyev tərəfindən başlanan iqtisadi inkişaf strategiyası ilə qoyulub. Bu səbəbdən də Azərbaycan xalqı hər il iyunun 15-ni Qurtuluş Günü kimi bayram edir.

Məlum olduğu kimi, müasir Azərbaycan tarixinin təxminən son 40 ili böyük öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Ömrünü Azərbaycan xalqının xoş gələcəyinə həsr etmiş ümummilli liderimiz Heydər Əliyev həm keçmiş Sovetlər birliyi dövründə, həm də müstəqillik illərində ölkəmizin tərəqqisi üçün böyük işlər görmüşdür. Azərbaycanın elə bir sahəsi yoxdur ki, bu böyük dövlət adamının bilavasitə diqqəti və fəaliyyəti nəticəsində inkişaf etməsin.

Müstəqilliyimizin ilk illərində də ulu öndərin rəhbərliyilə Azərbaycan xaosdan azad oldu. Böyük iradə və gərgin zəhmət bahasına Prezident Heydər Əliyev ölkə daxilində sabitlik yaratmağı bacardı və respublikamızın inkişafı üçün zəmin yaratdı. Bundan sonra böyük çətinlikləri dəf edən ümummilli liderimizin müdrik siyasəti nəticəsində ölkəmizin iqtisadi tərəqqisində əhəmiyyətli rol oynayan "Əsrin müqaviləsi" imzalandı. Dövlətimiz faktiki olaraq bununla dinamik inkişaf yoluna qədəm qoydu.

Ümummilli liderin rəhbərlik etdiyi 1993-2003-cü illər ölkəmiz üçün həlledici dövr oldu, yəni o illərdə dövlətçiliyimizin möhkəm təməli qoyuldu. Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edildi, ölkəmiz faktiki olaraq dünya birliyinə qovuşdu.

O illərdə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, siyasi sistem möhkəmləndirildi və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradıldı. Mahiyyət etibarilə həmin illər ərzində görülmüş işlər ölkəmizin hazırkı uğurlu inkişafını müəyyən edib.

Böyük iqtisadi layihələrin gerçəkləşdirilməsi Azərbaycan üçün taleyüklü sahə olan ordu quruculuğunda da əsaslı keyfiyyət dəyişikliklərinə gətirib çıxardı.

Qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyevin Silahlı Qüvvələrimizin təşəkkül və inkişafında əvəzsiz xidmətləri olub. Əslində ölkəmizdə ordu quruculuğu prosesi məhz böyük öndərin adı ilə bağlıdır. Hələ Sovet dövründə Azərbaycanın rəhbəri uzaqgörənliklə ölkəmizdə gənclərin hərbi təhsilə və xidmətə yönləndirilməsi üçün çox işlər görmüşdü.

Haqlı olaraq Cəmşid Naxçıvanski adına Hərbi Liseyi "Heydər Əliyev Məktəbi" adlandırırlar. Sovetlər dövründə respublikamıza rəhbərlik etmiş Heydər Əliyev azərbaycanlı gənclərin hərbi xidmətə marağının artırılması və onların ordu sıralarında Azərbaycanı layiqincə təmsil etməsi üçün böyük cəsarət və zəhmət bahasına 1971-ci ildə bu məktəbin paytaxtımızda yaradılmasına nail olmuşdu. İndi Azərbaycan Silahlı Qüvvələrində xidmət edən zabitlərin böyük əksəriyyəti məhz bu məktəbin yetirmələridir. Hərbi Liseyi bitirmiş insanlar arasında bu gün yüksək rütbəli zabitlər, generallar var və onlar dövlətimizin müdafiə qüdrətinə öz töhfələrini verirlər. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov da bu məktəbin yetirməsidir.

1998-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyası fəaliyyət göstərir. Həmçinin, orduda müxtəlif ixtisasartırma kursları, gizirlər və miçmanlar hazırlayan məktəb və s. Silahlı Qüvvələrin hərbi mütəxəssislərə olan tələbatını ödəmək iqtidarındadır. Bundan əlavə, azərbaycanlı hərbçilər dünyanın nüfuzlu ölkələrinin ali hərbi təhsil müəssisələrində təhsil alır, təcrübələrini artırırlar. Bu gün zabit kadrlarının peşəkarlığını arzuolunan səviyyəyə qaldırmaq məqsədilə ölkəmizdə kompleks hərbi təhsil sistemi yaradılıb.

Müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya onun layiqli varisi, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırmaqdadır. Məqsədyönlü siyasət nəticəsində Azərbaycan bu gün regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında mühüm rol oynayan ölkədir.

Azərbaycanın ümumi daxili məhsulu 3 dəfədən çox, büdcə xərcləri 20 dəfə artıb. Dünyanın aparıcı iqtisadi və maliyyə qurumları hazırda Azərbaycanın uğurlarını qeyd edir. Dünya İqtisadi Forumunun "Qlobal rəqabətlilik hesabatı"nda ölkəmiz dünyada 38-ci, MDB məkanında isə 1-ci yerdə qərarlaşıb. Ölkənin strateji valyuta ehtiyatları hazırda 53 milyard dollardan çoxdur.

2008-ci ildə Azərbaycan özünün rabitə peykinin orbitə çıxarılması haqqında qərar qəbul etdi. Beş il sonra Azərbaycanın ilk süni peyki orbitə çıxarıldı. Bu isə o deməkdir ki, Azərbaycan kosmik ölkələr sırasındadır.

Azərbaycan 2011-ci ildə BMT-yə üzv olan 193 dövlətdən 155-nin dəstəyini qazanaraq 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə qəbul edilib. Bu, Azərbaycanın diplomatiya tarixində ən böyük nailiyyətlərdən biridir, həmçinin, böyük öndərin davamçısı Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz nümunəsidir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin fəaliyyətini daim diqqətində saxlayır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın və ətraf 7 rayonun Ermənistanın işğalından azad edilməsi, eyni zamanda ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi məsələlərdəndir.

Dövlətimizin və müstəqilliyimizin dayağı olan Azərbaycan Silahlı Qvvələri bu gün ən müasir silah və texnika ilə təmin edilən, yüksək intizama və döyüş hazırlığına nail olan qüdrətli güc strukturudur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu beynəlxalq reytinq təşkilatları tərəfindən ən güclü ordular sırasına aid edilir.

Dövlət başçısı Respublika Günü ilə bağlı keçirilmiş bayram mərasimində ordu quruculuğuna bir daha toxunaraq bəyan etdi: "Son vaxtlar, keçən ilin yayından başlayaraq bu günə qədər Azərbaycan Ordusu təmas xəttində tam üstünlüyü təmin edib və düşmənə sarsıdıcı zərbələr endirib. Bu gün artıq Ermənistan rəhbərliyi etiraf edir ki, xarici yardım olmadan Azərbaycanın qabağını almaq mümkün olmayacaq. Biz isə həmişə deyirik ki, siz əgər ölmək istəmirsinizsə, Dağlıq Qarabağdan, işğal edilmiş torpaqlardan çəkilin. Ondan sonra sülh yarana bilər, ondan sonra Azərbaycan və erməni xalqları barışa bilərlər".

Silahlı Qüvvələrimizin gücləndirilməsi Azərbaycanın möhkəmləndirilməsi deməkdir. Qüdrətli Azərbaycan isə torpaqlarımızın erməni işğalından azad edilməsinə tam hazırdır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Tankçılar yeni mövsümə hazırdırlar

***Biz "N" hərbi hissəsinə gələndə tankçılar taktiki təlimdən yenicə qayıtmışdılar. Bütün şəxsi heyət texnikaya qulluq göstərməklə məşğul idi. Parkda demək olar ki, işlər yekunlaşmışdı. Zabit və gizirlərin sözlərinə görə, tanklarımız döyüşə tam hazır vəziyyətdədir və yuxarı komandanlığın hər bir əmrini yerinə yetirməyə hazırıq.***

- Hazırda günün nizam qaydalarına uyğun olaraq şəxsi heyət gündəlik fəaliyyətlə məşğuldur, - bizimlə söhbətində zabit Səxavət Baxışov bildirdi. - Döyüş hazırlığı planına uyğun olaraq, birinci yarımilliyin döyüş hazırlığı məşğələləri yekunlaşdırılıb. İndi yeni yarımilliyə hazırlıqla məşğuluq. Şəxsi heyət ön mövqelərdəki atəş hədlərində, cəmləşmə rayonunda mühəndis-istehkam işlərinin aparılmasına cəlb edilib. Bir sözlə, xidmətimizi günün nizam qaydalarına uyğun davam etdiririk.

Qeyd etməyə dəyər ki, tankçılar birinci yarımillik ərzində döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetiriblər. Planda nəzərdə tutulmuş bütün döyüş hazırlığı tədbirləri, o cümlədən sürücü-mexanik və tuşlayıcılarla praktik sürücülük və atış dərsləri, digər məşğələlər, taktiki təlimlər həyata keçirilib. Bundan əlavə, zabitlər və maşın komandirləri toplantılara cəlb ediliblər. Şəxsi heyət Müdafiə naziri general-polkovnik Zakir Həsənovun iştirakı ilə keçirilən taktiki təlimdə iştirak edib və yüksək nəticə göstərib.

Döyüş hazırlığı planına müvafiq olaraq, hər uzlaşma dövrünün yekununda taqımların və bölüklərin döyüş atışlı təlimləri keçirilir. Bu dəfə də tankçılar həmin təlimlərdə iştirak ediblər. Nəhayət, birliyin digər hərbi hissələrilə birlikdə təlim mərkəzlərinin birində taborun döyüş atışlı taktiki təlimi keçirilib. Şəxsi heyət bütün silah və texnika ilə təlimə qatılmışdı. Daha doğrusu, yuxarı komandanlığın rəhbərliyilə keçirilən təlim zamanı motoatıcı birləşməyə verilmiş tank bölməsi bir sıra taktiki tapşırıqları yerinə yetirdi. Avanqardın gecə vaxtı döyüşə yeridilməsi, birləşmə tərkibində taktiki qruplarla hərəkətlər icra olundu.



- Tankçılarımızın nümayiş etdirdiyi nəticələr yuxarı komandanlıq tərəfindən yüksək qiymətləndirildi, - zabit Anar Əliyev dedi. - Sevindirici haldır ki, taborun bütün şəxsi heyəti təşəkkürə layiq görüldü. Təlimdə nümunəvi fəaliyyətinə görə zabit Səxavət Baxışova birliyin komandanlığı tərəfindən təşəkkür elan edildi. Bu bizi daha ürəklə xidmət etməyə ruhlandırır.

Təlimin yekunlarına görə fərqlənən hərbi qulluqçulardan bölük komandiri kapitan Elmin Həsənov, təlim-döyüş maşınları bölüyündən gizirlər Elxan İsayev, Samir Əzimov, Yaşar Qədimov, Yasin Orucov, Sarvan Hüseynov, Səyyadi Abdulkərimov, tank bölüyündən gizir, Qarabağ müharibəsi veteranı Əzəddin Musayevin adlarını qeyd etmək olar. Digər sürücü mexaniklər də, tuşlayıcılar da təlim zamanı özlərini təcrübəli, intizamlı və məsuliyyətli döyüşçü kimi göstərməyi bacardılar, öz üzərlərinə düşən vəzifələri tam şəkildə yerinə yetirdilər. Hərbi hissə komandanlığı tərəfindən onların zəhməti yüksək dəyərləndirildi. Şəxsi heyət xidmətini böyük həvəslə davam etdirir.

- Əslində şəxsi heyətin döyüş ruhu, mənəvi-psixoloji hazırlığı ürəkaçandır, - zabit İsmayıl Qurbanov vurğulayır. - Tankçılar gündəlik məşğələlərdə, taktiki təlimlərdə praktik vərdişlərə mükəmməl yiyələniblər və buna görə də qarşıya qoyulan tapşırıqları yerinə yetirməyə qadirdirlər.

Biz bölük komandiri kapitan Elmin Həsənovla da görüşüb bu nümunəvi zabit barəsində qeydlər götürdük. Onun bölüyü təlimdən qayıtmış döyüş texnikasına qulluq göstərirdi. Kapitan Elmin Həsənov Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Nümunəvi xidmətinə və təşkilatçılıq bacarığına görə bir pillə irəli vəzifəyə təyin edilib. Əslən Yevlax rayonundan olan zabit bu vəzifədə də özünü doğrultmağı bacarıb.



Ötən ilin nəticələrinə görə, hərbi hissə müvafiq bölmələr arasında Silahlı Qüvvələrdə birinci yerə layiq görülüb. Bütün il ərzində nazirlik və birlik səviyyəsində keçirilən yoxlamaların nəticələrinə əsasən, hərbi hissədə döyüş hazırlığının səviyyəsi, qoşun xidmətinin təşkili, şəxsi heyətin nizam-intizamı, mənəvi-psixoloji vəziyyəti qiymətləndirilib. Tankçılar eyni bölmələr arasında fərqlənməyi bacarıblar.

Hərbi hissədə şəxsi heyət, demək olar ki, tamamilə zabit, gizir və müqavilə ilə hərbi xidmətə qəbul edilmiş müddətdən artıq həqiqi hərbi xidmət qulluqçularından komplektləşdirilib. Bu, şəxsi heyətin öz vəzifəsinə peşəkarcasına yanaşması üçün münasib zəmin yaradıb. Hərbi hissənin uğurlarında hər kəsin əməyi böyükdür.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***10 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 85 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli, Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Çaylı, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Şıxlar, Baş Qərvənd, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***11 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 95 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərindən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Ağdam rayonunun Şuraabad, Yusifcanlı, Şıxlar, Qaraqaşlı, Kəngərli, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***12 iyun 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 100 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex kəndlərində yerləşən mövqelərindən Tovuz rayonunun Əlibəyli, Ağdam kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Silahlı Qüvvələrimizin mövqeləri Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Çaylı, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Şıxlar, Baş Qərvənd, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*18 İyun - Milli İnsan Hüquqları Günüdür*

# “Hərbi qulluqçuların hüquqlarının müdafiəsi də əsas istiqamətlərdəndir”



***Bildiyimiz kimi, hər il iyunun 18-i respublikamızda Milli İnsan Hüquqları Günü kimi qeyd olunur. Bu tarixi günün keçirilməsi ilə bağlı mütəmadi açıqlamalar verən İnsan hüquqları üzrə Müvəkkil Elmira Süleymanova ulu öndər Heydər Əliyevin 1998-ci il iyunun 18-də təsdiq etdiyi Azərbaycan Respublikasında "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın əhəmiyyətini hər zaman xüsusi vurğulayır. "Bəşər sivilizasiyasının keçdiyi tarixi inkişaf mərhələlərinin son nəticədə qazandığı ən böyük nailiyyətlərindən biri insan hüquqlarına hörmət anlayışıdır. İnsan hüquqlarına hörmət cəmiyyətin demokratikliyini sübut edən əsas atributlardan biri olmaqla, həmin hüquqların qeyd-şərtsiz təmin olunması beynəlxalq hüququn təminatlarından biridir. Bu gün demokratik mahiyyətli dövlət qurduğunu elan edən hər bir ölkə dünya birliyində özünə layiq yer tutmaq istəyirsə, insan və vətəndaş hüquqlarının, azadlıqlarının hərtərəfli qorunmasını təmin etməli, bu hüquq və azadlıqların sərbəst şəkildə məhdudlaşdırılmadan həyata keçirilməsi üçün şərait yaratmalıdır".***

Bu ilin mart ayında Ombudsmanın ölkədə insan hüquqlarının, azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti haqqında 2014-cü ilə dair illik məruzəsi Milli Məclisə təqdim olunub. Həmin məruzədə yer alan hərbi qulluqçuların hüquqlarının müdafiəsi bölümündə bu istiqamətdə görülən işlər və nəzərdə tutulan məsələlərlə bağlı ətraflı məlumatlar yer alıb.

Hərbi qulluqçuların hüquqlarının müdafiəsini təmin etmək məqsədilə Ombudsmana ünvanlanmış təkliflər, müraciətlər araşdırılaraq, təhlil edilərək təkmilləşdirilmiş formada hesabata daxil edilib. Orduda ideoloji, hüquqi maarifləndirmə və təlim-tərbiyə işinin daha da gücləndirilməsinin, şəxsi heyətin yüksək döyüş ruhunun, psixoloji durumunun, qanunvericilik və nizamnamələrə uyğun xidmətin, Vətənə sədaqət, vətənpərvərlik mühitinin möhkəmləndirilməsinin, baş verə biləcək cinayətlərin qarşısını almağa yönəlmiş tədbirlərin ardıcıl və davamlı olaraq həyata keçirilməsinin zəruriliyi məruzədə qeyd edilib. Hərbi qulluqçuların hüquqi maarifləndirilməsi üzrə aparılan işlər də Ombudsmanın fəaliyyətinin vacib istiqamətlərindəndir. İnsan hüquqları üzrə müvəkkilin, əməkdaşların hərbi hissələrdə həyata keçirdiyi tədbirlərin məqsədi hərbi qulluqçuların hüquq və azadlıqlarının təmin edilməsi vəziyyətini, o cümlədən onların yaşayış, xidmət, asudə vaxtının səmərəli keçirilməsi üçün yaradılmış şəraiti, göstərilən tibbi xidmətin səviyyəsini, qidanın keyfiyyətini, hərbi qulluqçular arasında nizamnaməyə uyğun rəftarı öyrənməkdən ibarət olmuşdur.

Təcrübə göstərir ki, belə tədbirlərin keçirilməsi hərbi qulluqçuların hüquq və azadlıqlarının müdafiəsi, hüquqi maarifləndirmə, təlim-tərbiyə işinin, şəxsi heyətin döyüş əzminin və vətənpərvərlik ruhunun gücləndirilməsi baxımından əhəmiyyətlidir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Hədəflər dəqiq vurulur

***Təlim tapşırığını yerinə yetirən zenit-raket taqımının şəxsi heyəti yaşıllıqlar qoynunda mövqe tutub. Onlar yorulmaq bilmədən məşq edir, döyüş hazırlıqlarını artırırdılar. Əsgərlər cəld hərəkətlərlə irəli sıçrayır, təyin olunmuş vaxt çərçivəsində zirehli texnikanı döyüş vəziyyətinə gətirir, müəyyən ediləcək hədəfləri vurmağa hazır dayanırlar.***

- Şəxsi heyət müasir döyüş vərdişlərinə yiyələnmək üçün daim məşq edir, - deyə taqım komandiri baş leytenant İslam Əliyev bildirir. - Hazırda qarşımızda dayanan başlıca vəzifə təlim bölmələrini hava hücumundan müdafiə etməkdir. Vəzifəmizi bacarıqla yerinə yetirmək üçün xidmətimizə məsuliyyətlə yanaşırıq. Daim bütün istiqamətlərdə müşahidələr aparılır. Hədəflər aşkarlanan kimi dəqiq atəş zərbələri ilə məhv edilir. Mövqeyimizdə hər dəqiqə, hər an ayıq-sayıq dayanırıq. Çünki istənilən vaxt hədəf aşkarlana bilər. Uğur qazanıb müsbət nəticələr göstərməyə çalışırıq. Təlimdə fərqlənənlərdən döyüş maşınının komandiri gizir Robert Şeydayev, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu sürücü-mexanik Amil Cabbarov, operator əsgər İlkin Ramazanov və başqaları üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər.



**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Parlament seçkiləri Türkiyənin siyasi həyatında yeni mənzərə yaradıb



İyunun 7-də Türkiyə Böyük Millət Məclisinə keçirilmiş növbəti seçkilər ölkənin siyasi həyatında yeni bir mənzərə yaradıb.

Səsvermənin nəticələrinə görə, hakim AKP səslərin 40.86 faizinə sahib olmaqla mandat sayında liderliyi saxlayıb. CHP səslərin 24.96 faizini, MHP isə 16.29 faizini qazanıb. Xalqların Demokratik Partiyası HDP isə seçicilərin təxminən 13.12 faizinin etimadını qazana bilib. Beləliklə, Türkiyənin yeni parlamentində AKP 258, CHP 132, MHP və HDP isə 80 mandatla təmsil olunacaqlar.

Artıq Baş nazir Əhməd Davudoğlunun rəhbərlik etdiyi hökumət istefa verib.

## Hakerlər Amerika ordusunun saytını dağıdıblar



ABŞ-ın Quru Qoşunlarının saytı naməlum hakerlərin hücumuna məruz qalıb, resurs müvəqqəti olaraq fəaliyyətini dayandırıb.

AZƏRTAC Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, Pentaqon resursda heç bir məxfi məlumatın saxlanmadığını və onun yalnız orduda xidmətin təbliğ olunmasına yönəldiyini bildirib.

Amerikalı hərbçilər sayta hücumla bağlı məsuliyyəti "Suriya elektron ordusu"nun öz üzərinə götürdüyünü qeyd edib. Bir qədər əvvəl suriyalı hakerlər Nyu York Tayms, Guardian, Waşington Post qəzetlərinin, Associated Press agentliyinin kompüter şəbəkələrini, həmçinin müxtəlif informasiya telekanallarının səhifələrini də dağıtmışdılar.

## "Türk axını" layihəsinin ilkin mərhələsi 3,3 milyard avroya başa gələcək



"Türk axını" layihəsinin ilkin mərhələsi 3,3 milyard avroya başa gələcək. Layihənin inşası ilə bağlı Rusiya və Türkiyə arasında hökumətlərarası sənəd iyunun sonunda imzalanacaq. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə "Qazprom"un vitse-prezidenti Aleksandr Medvedev məlumat verib.

"Türk axını" layihəsi ilə 63 milyard kubmetr Rusiya qazının Türkiyədən keçməklə Avropaya çatdırılması nəzərdə tutulur. Bu həcmin 47 milyard kubmetri Avropanın, 16 milyard kubmetri isə Türkiyənin daxili tələbatının ödənilməsi üçün istifadə olunacaq. Layihə üzrə ilk qaz nəqlinin 2016-ci ilin dekabrında həyata keçirilməsi planlaşdırılır.

## İntiharçı Luksordakı Karnak məbədi qarşısında özünü partladıb



Luksorda qədim Misirin məşhur Karnak məbədi yaxınlığında terror aktı törədilib və polis işçilərinə hücum edilib.

Misir KİV-ləri xəbər verir ki, intiharçı məbədin ərazisində özünü partladıb. Həmçinin xəbər verilir ki, Karnak məbədinin qarşısındakı meydanda bir qrup terrorçu polis işçilərinə hücum edib. Polis qüvvələri hücumun qarşısını ala bilib və hücum edən üç terrorçu məhv edilib.

Turistlər və asayiş keşikçiləri arasında ölənlər və zərərçəkənlər barədə məlumat verilmir.

## Britaniyalı deputatlar Avropa İttifaqından çıxmaq üçün referendum keçirilməsinə səs veriblər



Britaniyalı deputatlar Baş nazir Devid Kemeronun Avropa İttifaqından (Aİ) çıxmaq üçün referendum keçirilməsi təşəbbüsünü dəstəkləyiblər.

AZƏRTAC xəbər verir ki, qanun layihəsi ikinci oxunuşda deputatların böyük əksəriyyəti tərəfindən qəbul edilib. Belə ki, 544 deputat referendumun lehinə, 53 nəfər isə əleyhinə səs verib. Gələn həftədən başlayaraq layihəyə parlament komitələri tərəfindən baxılacaq. BBC yayım kompaniyasının məlumatına əsasən, qanun statusu almaq üçün sənəd parlamentdə daha bir neçə mərhələ keçməlidir.

## Ukrayna: neft bazasında yanğın nəticəsində ölənlərin sayı beş nəfərə çatıb



İyunun 8-də Kiyev şəhəri yaxınlığındakı neft bazasında baş verən yanğın nəticəsində ölənlərin sayı beş nəfərə çatıb. AZƏRTAC xəbər verir ki, yanğın nəticəsində 12 nəfər xəsarət alıb, 5 nəfər həlak olub, 10 nəfər isə xəstəxanaya yerləşdirilib. Yanğının söndürülməsi davam edir. Bazada 17 neft çəninin olduğu, 50 metr aralıda isə silah anbarının yerləşdiyi bildirilir. Ukrayna prezidentinin mətbuat katibi Svyatoslav Tseqolkonun sözlərinə görə, hadisənin terror aktı olduğu təsdiqlənməyib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

# Hərbçilər də Birinci Avropa Oyunlarını həvəslə izləyirlər




***Dünyada artıq idman ölkəsi kimi tanınan Azərbaycan möhtəşəm idman bayramlarından birinə - Birinci Avropa Oyunlarına ev sahibliyi edir. Bəli, bu gün bütün qitələrin gözü füsunkar paytaxtımıza dikilib.***

Bakı-2015-in başlanması ərəfəsində ölkəmizdə bir bayram əhval-ruhiyyəsi yaşanıb. Qədim Atəşgah məbədindən alovlandırılan məşəl Azərbaycanın bölgələrini dolaşdıqdan sonra paytaxtımıza qayıdıb. Xalqımızın bütün təbəqələri, əsasən də Azərbaycan gəncliyi birinci Avropa Oyunlarının ölkəmizdə keçirilməsini xüsusi coşqu ilə qarşılayıb.

Möhtəşəm idman bayramını əsasən gənclərdən ibarət olan Silahlı Qüvvələrimiz də səbirsizliklə gözləyir və yüksək qürur hissi keçirirdilər. Avropanın ən möhtəşəm idman bayramı ilə bağlı bu günlərdə Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsində keçirilmiş toplantı hərbi qulluqçuların Bakı-2015-ə dərin marağının ifadəsidir.

Toplantıda Maddi-Texniki Təminat Baş İdarəsi şəxsi heyət şöbəsinin rəisi polkovnik İslam Gəncəliyev çıxış edərək Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsinin ictimai-siyasi və tarixi əhəmiyyətini açıqladı, beynəlxalq idman tədbirinin yüksək səviyyədə təşkil edilməsi üçün hərbi qulluqçuların da xüsusi fəallıq göstərməsindən söz açdı və Azərbaycan idmançılarına bu möhtəşəm idman bayramında uğurlar arzuladı.

Toplantıda iştirakçıların diqqətinə Birinci Avropa Oyunları ilə bağlı maraqlı məlumatlar çatdırıldı. Bildirildi ki, iyunun 12-də start götürən mötəbər yarışlarda Azərbaycan 291 idmançı ilə mükafatlar uğrunda mübarizə aparır.

Məlum olduğu kimi, Azərbaycan da daxil olmaqla Avropanın 50 ölkəsindən 6000-dən artıq idmançı 20 idman növündə mübarizə aparır. Bu idman növlərindən 16-sı olimpiya, 4-ü isə qeyri-olimpiya növlərinə daxildir. Ümumilikdə 59 Olimpiya, 200 dünya çempionunun iştirak etdiyi Birinci Avropa Oyunları bütün dünyanın diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 9-da Atletlər Kəndində Azərbaycan nümayəndə heyəti ilə görüş də ölkəmizin Avropa səviyyəli idman bayramına münasibətini bildirərək deyib: "Əminəm ki, dünya miqyasında ən gözəl Oyunları biz keçirəcəyik.



Baxmayaraq ki, Oyunların hazırlanması üçün cəmi iki il yarım vaxtımız var idi. Ancaq xalqımız, dövlətimiz öz gücünü göstərdi. Biz qısa müddət ərzində dünya səviyyəli, Yay Olimpiya Oyunları səviyyəsində Oyunlar hazırlamışıq və uğurla keçirəcəyik".

İlk Avropa Oyunları ölkəmizin 21 idman arenasında keçirilir. Birinci Avropa Oyunlarının əhəmiyyətini artıran mühüm amillərdən biri də onun 2016-cı ildə Rio de Janeyro - Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşımasıdır.

Toplantıda, həmçinin, Birinci Avropa Oyunlarının rəmzlərini, əzəmətli yarış meydanlarını, habelə beynəlxalq tədbirlə bağlı ölkə rəhbərliyi tərəfindən həyata keçirilən irimiqyaslı quruculuq işlərini özündə əks etdirən videoçarx nümayiş etdirildi.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# "Həmişə mətin və mübariz olun"

***İyunun 10-da Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri yenə də cəbhə bölgəsinə - bu dəfə isə hospitalda müalicə olunan Azərbaycan əsgərləri ilə görüşə tələsirdilər.***



...Səhər ertədən gözəllikləri seyr edə-edə yol gedirdik. Nəhayət, hospitala çatdıq. Hərbi hissənin ərazisinə daxil olanda bizi polkovnik-leytenant Şücaət Əliyev və hərbi həkimlər səmimiyyətlə qarşıladılar. Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyət Ağadadaşova və komitənin nümayəndələri palataları gəzərək müalicə olunan əsgərlərlə görüşdülər, onlara sovqat təqdim etdilər.

Bir azdan hospitalın dəhlizində masalar düzüldü. Müalicə olunan əsgərlər, komitənin nümayəndələri, həkimlər, tibb işçiləri masa arxasına yığışdılar. Qonaqların gətirdikləri müxtəlif şirniyyat və meyvələr masanın üstünə düzüldü. Komitənin nümayəndələri müalicə olunan əsgərlərlə söhbət edib, hal-əhval tutdular. Abiyət Ağadadaşova əsgərlərə xitabən dedi:

- Əziz əsgərlər, bizim hərbi hissə və birləşmələrdə görüşlərimiz tez-tez olur. Bu gün sizin yanınıza gəlmişik. Gəlmişik ki, müalicənizin gedişi ilə maraqlanaq, sizə mənəvi qayğımızı əsirgəməyək. Gəlib sizi gülərüz gördük, ürəyimiz açıldı, qəlbimiz dağa döndü. Hər addımda ordumuzun gücü-qüdrəti hiss olunur. Ordumuzda aparılan islahatlar, keçirilən təlimlər artıq müsbət nəticələr verir. Təşkilatımızın nümayəndələri bu şəfa ocağına müntəzəm olaraq baş çəkir, burada müalicə olunan döyüşçülərə mənəvi dəstək olurlar. Bu gün siz hərbçilərin çiyinlərinə məsuliyyətli vəzifələr düşür. Xalqımız torpaqlarımızı qorumağı sizlərə etibar edib. Siz də çox sağ olun ki, üzərinizə düşən bu tapşırıqların öhdəsindən cəsarət və hünərlə gəlirsiniz. Torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanırsınız. Daim belə - mətin və mübariz olun. Komandirlərinizin əmr və tapşırıqlarını inamla yerinə yetirin. İnanıram ki, bundan sonra da xidmətinizə məsuliyyətlə yanaşacaq, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanacaqsınız. Vətənimizə yaxşı əsgər, dövlətimizə layiqli vətəndaş olacaqsınız. Siz hospitalda intensiv müalicə alıb, həkimlərin səyi ilə qısa müddət ərzində sağalıb xidmət etdiyiniz hərbi hissəyə qayıdacaq və üzərinizə düşən vəzifələri şərəflə yerinə yetirəcəksiniz. Qarşıdan əlamətdar günlərindən biri - 26 İyun Silahlı Qüvvələr Günü gəlir. Bu əziz və əlamətdar gün münasibəti ilə sizləri ürəkdən təbrik edir, xidmətinizdə uğurlar arzulayıram.

Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri çıxışını bitirəndən sonra hospitalın beş nəfər nümunəvi işçisini pulla mükafatlandırdı və özündə "Conon" tipli üç funksiyalı aparatı hospitalın rəisinə təqdim etdi. Bu hədiyyə həkimlərin ürəyincə oldu.

Polkovnik-leytenant Şücaət Əliyev həm şəfa ocağına, həm də burada müalicə olunan zabit və əsgərlərə diqqət və qayğı göstərdiyinə görə Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin kollektivinə minnətdarlığını bildirdi. Xeyirxah işlərinə görə Abiyət xanım Ağadadaşova fəxri fərmanla mükafatlandırıldı.

Bu səmimi görüş tədbirdə iştirak edən hər kəsdə xoş təəssürat yaratdı.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**



*Əsgərin tribunası*

# Düşmən gülləmizdən yayına bilməz

Xidmətə ötən ilin iyul ayında çağırılmışam. Artıq bir ilə yaxındır ki, əsgərəm, doğma ordumuzun sıralarında xidmət edirəm. Vətən qarşısında borcumu şərəf və ləyaqətlə yerinə yetirirəm. Gənc əsgər kimi xidmətə başladığım günlərdə ön xətdə vəziyyət gərginləşmişdi. Erməni işğalçıları atəşkəs rejmini pozaraq müxtəlif istiqamətlərdən torpaqlarımıza hücum edirdilər. Ön xətdəki zabit və əsgərlərimiz mövqelərində möhkəm dayanaraq, düşmənə ciddi müqavimət göstərir, dəqiq atəş zərbələri ilə erməni qəsbkarlarını məhv edirdilər. Həmin günlər biz gənc əsgərlər olduğumuza görə postlara qaldırmadılar. Amma mənim fikrim ön xətdə olan zabit və əsgərlərin yanında qalmışdı. Ürəyim onlarla birgə vururdu.

Yadımdadır, o gərgin günlərdə Vətənimizin taleyindən narahat olan insanlar silaha sarılıb vuruşmaq, torpaqlarımızı erməni işğalçılarından azad etmək üçün hərbi hissəmizə üz tutmuşdular. Gözlənildiyi kimi, hər şey üstünlüyümüzlə başa çatdı. Zabit və əsgərlərimizin dəqiq atəş zərbələrinə tuş gələn ermənilər geri çəkilməyə məcbur oldular.

Biz bu gün yenə də düşmənlə üz-üzə dayanmışıq. Gecə-gündüz əldə silah torpaqlarımızın keşiyində dayanaraq sələflərimizin döyüş yollarını şərəf və ləyaqətlə davam etdiririk. Artıq ötən müddət ərzində təlim-məşqlərdə fəal iştirak edərək xeyli təcrübə qazanmışam. Müxtəlif təyinatlı silahlardan hədəflərə dəqiq atəş açmağı bacarıram. Düşmən gülləmizdən yayına bilməz.

Hərbi sirlərə və döyüş vərdişlərinə dərindən yiyələndiyimə görə komandirlərim olan kapitan Səxavət Əliverdiyevə, baş leytenant Hilal Tanrıverdiyevə və gizir Ruslan Nəsibova minnətdaram.

**Əli İSMAYILOV,**
**"N" hərbi hissəsinin**
**əsgəri**

# Texniki qulluq döyüş hazırlığında əsas amildir





Zabit Cavanşir Qurbanovla hərbi hissənin həyətində görüşdüm. Şənbə günü olduğundan o, səhər yerbəyerində şəxsi heyətə lazımi tapşırıqlarını verəndən sonra hər kəs xidmət yerinə yollanmışdı. Adətən, hərbi hissə və birləşmələrdə texniki baxış üçün şənbə günləri daha gərgin və səmərəli olur. Həmin gün şəxsi heyət ərazidə, əsgər yataqxanalarında və avtomobil parklarında təmizlik, abadlıq işləri görür. Bu gün də belə idi. Əsgərlərin bir qismi ərazidə və yataqxanalarda səliqə-sahman aparırdı. Bir qismi isə yeni istifadəyə verilmiş "boks"larda zirehli döyüş texnikalarına qulluq göstərir, onların sazlığını nəzərdən keçirirdi.

Zabit söhbətimizdə bildirdi ki, döyüş texnikalarının və artilleriya qurğularının həmişə döyüşə hazır vəziyyətdə saxlanması onların qarşısında duran ən başlıca vəzifələrdən biridir.

Komandirlə parka gəldik. Burada hərbi qulluqçular xüsusi geyimdə texnikalara və silahlara qulluq göstərirdilər. Maşın komandiri gizir Cavid Xudaverdiyev özünü hərbi qaydada təqdim edir. İlk baxışdan ciddi görkəm təsiri bağışlayan komandirin bir qədər söhbətdən sonra üzündə xoş bir təbəssüm yarandı. İşinə və xidmətinə daim məsuliyyətlə yanaşan Cavid bu dəfə də tabeliyində olan heyətlə birlikdə həvalə edilmiş texnikanın qulluğunda idi. Heyət həm maşının, həm də silahın vacib hissələrini silib təmizləyirdilər. Əgər silah və texnikaya bu cür qulluq göstərilməsə, ya təlimdə, ya da döyüşdə səni darda qoyar. Bu səbəbdən də hər kəs yaxşı bilməlidir ki, xidməti istifadəsində olan istənilən silah və texnikaya qulluq ən vacib şərtlərdən biridir. Bunu əsgərlərdən Vüsal Hüseynzadə, Elçin Heydərov, Hikmət Mahmudov və sürücü-mexanik Səbuhi Məmişov da yaxşı dərk edir. Onlar hərbi xidmətdən qürur duyur, təhkim edilmiş texnikasını mükəmməl öyrənməklə təlimdə yüksək nəticə əldə etməyə çalışırlar. Ona görə də hər döyüş atışlı təlimdə belə uğurlar çox qazanılır.

Hər bir uğurun başlanğıcında yüksək intizam, gərgin zəhmət dayanır. Çəkilən zəhmət heç vaxt hədər getmir. Artilleriyaçılar təlimdə əldə etdikləri nəticələri gələcək döyüşlərdə də təkrarlayacaq və millətimizə qələbə sevinci yaşadacaqlar.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## "İhlas" xəbər agentliyi: "Dünyanın gözü Azərbaycandadır"



Türkiyənin "İhlas" xəbər agentliyi "Bakı-2015" ilk Avropa Oyunları ilə bağlı məqalə yayıb. AZƏRTAC xəbər verir ki, "Dünyanın gözü Azərbaycandadır" sərlövhəli məqalədə qeyd olunur: "Dünya idman ictimaiyyətinin həyəcanla gözlədiyi Birinci Avropa Oyunlarının başlamasına sayılı günlər qalıb. Oyunlara bir milyondan artıq tamaşaçının gələcəyi gözlənilir".

Məqalədə Türkiyənin gənclər və idman naziri Akif Çağatay Kılıça istinadən Birinci Avropa Oyunlarının əhəmiyyətli tədbir olduğu qeyd edilir. Müəllif Oyunların keçiriləcəyi məkanlar, idmançıların qalacağı Atletlər Kəndi haqqında da məlumat verir.

## "Bakı-2015" Birinci Avropa Oyunlarında iştirak edəcək boksçularla görüş keçirilib



Azərbaycan Boks Federasiyasında "Bakı-2015" Birinci Avropa Oyunlarında iştirak edəcək boksçularla görüş keçirilib. Tədbirdə Azərbaycan Boks Federasiyasının vitse-prezidenti, AİBA İcraiyyə Komitəsinin üzvü Süleyman Mikayılov çıxış edərək ölkəmizin tarixi hadisə ərəfəsində olduğunu deyib. Milli komandamızın baş məşqçisi Pedro Rok boksçularımızın yarışlara yaxşı hazırlaşdıqlarını söyləyib. Milli komandamızın kapitanı Məhəmmədrəsul Məcidov komandada yüksək əhval-ruhiyyənin olduğunu bildirib. Boksçumuz Avropa Oyunlarında yaxşı nəticə qazanmaq üçün əllərindən gələni edəcəklərini vurğulayıb.

## "Bakı-2015"-in Media Kəndində yerli və əcnəbi jurnalistlər üçün əyləncəli gecə təşkil olunub



"Bakı-2015" Birinci Avropa Oyunlarının Media Kəndində yerli və əcnəbi jurnalistlər üçün əyləncəli gecə təşkil olunub. AZƏRTAC xəbər verir ki, 800-dən artıq jurnalistin qatıldığı tədbirdə Azərbaycanın milli musiqi aləti olan tarın və Avropa musiqi alətlərinin ifasında səsləndirilən könül oxşayan musiqi parçaları xarici jurnalistlər tərəfindən hərarətli alqışlarla qarşılanıb. Tədbirdə maraqlı məqamlardan biri də yerli və xarici jurnalistlərin "Yallı" rəqsini birgə ifa etmələri olub.

## Fəridə Əzizova: Azarkeşlərimizin yarışlara gəlməsini və bizə dəstək olmasını gözləyirəm



"Bakı-2015" Birinci Avropa Oyunlarının taekvondo yarışlarında Azərbaycanın idman şərəfini səkkiz atlet qoruyacaq. Dörd kişi və dörd qadın idmançının daxil edildiyi taekvondo üzrə Azərbaycan milli komandasının heyətində dünya və Avropa çempionatlarının mükafatçısı Fəridə Əzizova da yer alıb. F.Əzizova AZƏRTAC-a müsahibəsində bildirib ki, Avropa Oyunlarının Bakıda keçirilməsi məsuliyyətimizi daha da artırır. Çünki Azərbaycan xalqı, valideynlərimiz, yaxınlarımız bizi izləyəcək. Azarkeşlər bizi dəstəkləyəcək və həm onlar, həm dövlətimizin başçısı, həm də Azərbaycan Taekvondo Federasiyasının rəhbərliyi bizdən yaxşı nəticələr gözləyəcək. Biz də Avropa Oyunlarında yaxşı çıxış edib, göstərilən etimadı doğrultmaq istəyirik.

## Azərbaycana səfər edən portuqaliyalı və xorvatiyalı velosipedçilər Bakıya çatıblar



"Bakı-2015" ilk Avropa Oyunlarına velosipedlə" layihəsi çərçivəsində Azərbaycana səfər edən Portuqaliya və Xorvatiyadan olan velosipedçilər artıq Bakıdadırlar. Portuqaliyalı velosipedçi Corc Kristovao aprelin 10-da ölkəsindən yola düşüb və ümumilikdə 7 min kilometrə yaxın məsafə qət edib. Xorvatiyada velosiped idmanının və turizmin təşviqi ilə məşğul olan, daha əvvəl Yay və Qış Olimpiadalarını qəbul edən Pekin, London və Soçi şəhərlərinə də səfərlər təşkil edən "Pedalinac" velosiped klubunun beş üzvü isə mayın 5-də yola çıxıb. Onların marşrutunun uzunluğu təxminən 4 min kilometrdir. Paytaxta daxil olan səfər iştirakçıları Dövlət Bayrağı Meydanında qarşılanıblar.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Baş gizir Şabanov Ceyhun Bəşir oğluna 2011-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu baş çavuş Zülfəliyev Ağa Müşfiq oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid FAXRALI

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 533
Nüsxə 4600